# İQTİSADİYYAT

UOT 338.242.4

## AZƏRBAYCANDA DÖVLƏT BÜDCƏSİ XƏRCLƏRİNİN İQTİSADİ ARTIMA TƏSİR MƏSƏLƏLƏRİ

**AĞA-KƏRİM HACIYEV**
***AMEA İqtisadiyyat İnstitutu***
**a.h.haciyev@gmail.com**

*Məqalədə Azərbaycanda dövlət büdcəsi xərclərinin iqtisadi artıma təsiri və onun təkmilləşdirilməsi istiqamətləri araşdırılır.*

*Elmi ədəbiyyatda mövcud olan yanaşmalara əsasən dövlət büdcəsi xərclərinin iqtisadi artıma təsir məsələləri, neft ixracı ölkələri timsalında, dəqiqləşdirilərək göstərilir ki, dövlət büdcəsi xərclərinin optimal səviyyəsi hər bir ölkənin iqtisadi xüsusiyyətləri nəzərə alınaraq müəyyənləşdirilməlidir.*

*Məqalənin sonunda Azərbaycanda büdcə prosesinin təkmilləşdirilməsi üçün istifadə oluna biləcək büdcə qaydaları, o cümlədən dövlət büdcəsinə edilən transfertlərin səviyyəsi təhlil olunur.*

**Açar sözlər:** ÜDM**,** dövlət büdcəsi xərcləri**,** iqtisadi artım, makroiqtisadi sabitlik, dövlət büdcəsi kəsri

**Giriş.** Məlumdur ki, iqtisadi artım və makroiqtisadi tənzimləmə siyasətlərində seçilmiş hədəf, mexanizm və istifadə edilən alətlər ölkədə investisiya mühiti və sosial-iqtisadi inkişafın fərqli səviyyələrini təmin edir. Bu səbəbdən də, istər inkişaf etməkdə olan, istərsə də inkişaf etmiş ölkələrdə yaranmış konkret iqtisadi şəraitdən asılı olaraq makroiqtisadi siyasətin əsas mexanizm və alətlərinin istifadə isriqamətləri ilə iqtisadi artımın sürəti və iqtisadiyyatda struktur dəyişiklikləri arasında qarşılıqlı əlaqələrin təhlili və qiymətləndirilməsi daima aktuallığını saxlayan tədqiqat məsələlərindəndir.

İqtisadi nəzəriyyədə istər iqtisadi artım, istərsə də makroiqtisadi stabilləşdirmə siyasətlərinin reallaşdırılmasında fərqli yanaşmalar mövcuddur. Ən ümumi şəkildə onlar aşağıdakı kimi qruplaşdırıla bilər:

- *iqtisadi artım siyasəti*: 1) daxili tələbin genişlənməsinə əsaslanan *tələb iqtisadiyyatı* variantı; 2) daxili təklifin genişlənməsinə əsaslanan *təklif iqtisadiyyatı* variantı;

- *makroiqtisadi stabilləşdirmə siyasəti*: 1) *ortodoksal variant,* iqtisadiyyatın stabilləşdirilməsi və inflyasiyanın səviyyəsinə nəzarət milli valyutanın nominal mübadilə məzənnəsi, faiz dərəcəsi və büdcə kəsrinin səviyyələrinin tənzimlənməsi üzrə; 2) *qeyri-ortodoksal variant,* stabilləşdirmənin təmin olunması dövlət tərəfindən qiymətlərin və gəlirlərin səviyyəsinə birbaşa və sərt nəzarətin həyata keçirilməsi üzrə; 3) *qarışıq variant,* birinci və ikinci variantların eyni zamanda tətbiqi üzrə.

Elmi ədəbiyyatda makroiqtisadi tənzimləmənin iki istiqaməti – pul-kredit və büdcə-vergi siyasətlərinin iqtisadi artımın və makroiqtisadi stabilləşdirmənin təmin olunmasında əhəmiyyəti üzrə fərqli baxışlar mövcuddur. Lakin əgər pul-kredit siyasəti rejimlərinin iqtisadi artım və makroiqtisadi stabilləşdirmədə yeri və təsir istiqamətləri üzrə bir mənalı yanaşma müəyyənləşibsə, büdcə xərclərinin səviyyəsi və strukturu üzrə dəyişikliklərin iqtisadi artım və makroiqtisadi stabilləşdimədə yeri və təsiri istiqamətləri üzrə, bu cür birmənalı yanaşma mövcud deyil. Bu baxımdan da büdcə xərcləri siyasəti, iqtisadi artım və makroiqtisadi sabitlik məsələlərinin qarşılıqlı əlaqələrinin təhlili və qiymətləndirilməsi makroiqtisadi siyasətdə araşdırılan mühüm tədqiqat məsələlərindəndir.

Azərbaycanda əsaslı iqtisadi islahatların başlandığı ilk dövrlərdən etibarən müxtəlif illərdə fərqli iqtisadi artım və stabilləşdirmə strategiyaları reallaşdırılıb. Belə ki, 1995-1999-cu illər – reallaşdırılan sərt büdcə xərcləri siyasəti, 2000-2003-cü illər – balanslaşdırılmış büdcə xərcləri siyasəti ilə, 2004-2008-ci illərdə isə ekspansionist büdcə xərcləri siyasəti ilə əvəzlənib və s. Bütün bu siyasətlərin iqtisadi artıma təsir istiqamətlərinin qiymətləndiilməsi onların mövcud nəzəri yanaşmalar üzrə təhlilini və bu əsasda, Azərbaycan üçün məqbul yanaşma istiqamətinin müəyyənləşdirilməsini tələb edir. Məqalədə, bu baxımdan, Azərbaycanda büdcə xərcləri siyasəti və iqtisadi artım məsələlərinin qarşılıqlı əlaqələri araşdırılır.

**Büdcə xərcləri siyasəti, iqtisadi artım və makroiqtisadi sabitlik.** İqtisadi nəzəriyyədə dövlət xərclərinin iqtisadi artıma təsirinə iki fərqli yanaşma mövcuddur: 1) Keyns nəzəriyyəsinə əsaslanan yanaşmalara müvafiq olaraq dövlət xərclərinin artımı və məcmu tələbin genişlənməsinin iqtisadi artımı sürətləndirməsi; 2) "yeni klassik" nəzəriyyələrə əsaslanan yanaşmalara müvafiq olaraq iqtisadi artıma dövlət xərclərinin səviyyəsindən daha çox, bu xərclərin strukturu və onun təkmilləşdirilməsinin təsir göstərməsi istiqamətləri.

Empirik tədqiqatlarda dövlət xərclərinin (və ya dövlətin ölçülərinin) iqtisadi artıma təsirinin qiymətləndirilməsi məsələlərinə yanaşmalar bir sıra nisbi parametrlərin - ilk növbədə, büdcə xərclərinin ÜDM-də payı; büdcə sektorunda məşğul olanların iqtisadiyyatda təmin olunmuş ümumi məşğulluqdakı payı; dövlət büdcəsi üzrə həyata keçirilən investisiyaların ümumi investisiyalardakı payı və s.- qiymətləndirilməsi üzrə aparılır. Araşdırılan əsas suallar sırasında isə: a) dövlətin nisbi ölçüləri ilə iqtisadi artım templəri arasında asılılığın mövcudluğu; b) bu asılılığın (əgər mövcuddursa) forma və istiqamətləri; c) iqtisadi artım sürətinin dəyişməsi ilə bu əlaqələrin xarakterində baş verən

dəyişikliklər; d) iqtisadi artım sürəti baxımından dövlətin optimal ölçülərinin mövcudluğu və s. göstərmək olar. Əldə olunmuş nəticələr baxımından empirik tədqiqatları 3 qismə ayrılır:

- büdcə xərclərinin artım sürətinin yüksəlməsi iqtisadi artımı zəiflədir (başqa sözlə, dövlətin ölçülərinin artım sürəti iqtisadi artım templərini zəiflədir);
- dövlətin ölçüləri ilə iqtisadi artım arasında dayanıqlı əlaqə mövcud deyil;
- dövlətin ölçüləri ilə iqtisadi artım arasında birbaşa və müsbət əlaqələr mövcuddur (başqa sözlə, dövlətin müxtəlif istiqamətlər üzrə həyata keçirdiyi büdcə xərcləri sürətləndikcə iqtisadi artım sürətlənir).

Dövlətin iqtisadiyyatda fəaliyyətinin miqyasını xarakterizə edən ən ümumiləşdirilmiş göstərici - dövlət büdcəsi vasitəsi ilə maliyyə resurslarının yenidən bölgüsünün miqdarı və ya dövlət büdcəsi xərclərinin ÜDM-də payının səviyyəsidir. Bu istiqamətdə tədqiqatlar sırasında, ilk növbədə, iqtisadi nəzəriyyədə "Vaqner qanunu" kimi tanınan, ölkədə adam başına düşən ÜDM-in (milli gəlirin) artım sürəti ilə dövlət büdcəsi xərclərinin artım sürəti arasında asılılığın mövcudluğu qanununa əsaslanan araşdırmaları göstərmək lazımdır [1]. Vaqner qanununa müvafiq olaraq iqtisadi artım büdcə xərcləri artımının sürtlənməsi amili kimi çıxış edir və iqtisadi artımın sürətlənməsi dövlətin ölçülərinin artmasını şərtləndirir. Qanun, hal-hazırda, da bir sıra empirik təhlillərin nəticələri ilə təsdiqlənir. Mövcud statistik məlumatlar üzrə aparılmış təhlillərə əsasən zəif inkişaf etmiş ölkələrdə dövlət gəlirlərinin ÜDM-də xüsusi çəkisi, orta hesabla, 21,8%; orta inkişaf səviyyəsinə çatmış ölkələrdə 29,8%; yüksək inkişaf səviyyəsinə malik ölkələrdə isə 38,7% (müvafiq olaraq, dövlət xərclərinin ÜDM-də payı isə 27,3%; 33,0% və 40,3%) təşkil edir [2]. Aydımdır ki, Vaqner qanunu statistik məlumatlar üzrə empirik təsdiqini tapsada, qanun, universal xarakter daşımır və mövcud nəzəri yanaşmalar baxımından əsaslandırmaya malik deyil.

Bundan əlavə, istənilən ölkədə dövlət xərclərinin yalnız müəyyən həddə kimi yüksəlişi halında qanunauyğunluq öz qüvvəsini saxlayır, bu həddən sonra isə- yox. Beləki, Vaqner qanunu formalaşdırılmış halda aşağıdakı qeyri-xətti asılılıqla xarakterizə oluna bilər: $G=a*(ÜDM)^b$, burada ÜDM-istehsal olunmuş Ümum daxili məhsul, G-istehlak olunmuş ÜDM-in tərkibində dövlət xərcləri, a və b isə, müvafiq parametrlər olaraq, a>0, b>1 şərtlərini ödəyir. Parbola şəkilli əyri onu ifadə edirki, sürətlənən dövlət xərclərinin artımının müəyyən həddindən sonra istehsal olunmuş ÜDM bütünlükdə dövlət sektoru tərəfindən istehlek lunmalıdır).

Qanunun tətbiqinin məhdudluğu bir sıra tədqiqatlarda da qeyd olunur. Belə ki, [3,4] göstərilir ki, iqtisadi baxımdan yüksək inkişaf səviyyəsinə malik ölkələrdə belə qanununa uyğunluq müşahidə olunmur, yalnız zəif inkişafa malik ölkələrdə o, öz doğruluğunu saxlayır. Bu cür məhdudiyyətin mövcud-

luğunu, ilk dəfə, *Riçard Army* (Richard Armey) və *Riçard Rana* (Richard Rahn) müəyyənləşdirib. Onlar göstərib ki, həqiqətən iqtisadi artım templəri ilə büdcə xərclərinin ÜDM-də payının artımı arasında parabolik (əksinə çevrilmiş U şəkilli asılılıq) mövcuddur və müəyyən "təpə" nöqtəsindən sonra dövlət xərclərinin artımı iqtisadi artıma mənfi təsir göstərir.

Uzun illər müxtəlif ölkələrin statistik məlumatları üzrə dövlət xərclərinin iqtisadi artıma təsirinin ən səmərəli səviyyəsini Djerald Skalli (Gerald Scully), Armi-Rani əyrisi üzrə 23% səviyyəsində müəyyənləşdirib. Bu nöqtə elmi ədəbiyyatda, hal-hazırda da, *Skalli* əyrisi adlanır [5].

Azərbaycanda iqtisadi artımın bərpasının ilk illəri, 1996-cı ilin ikinci yarısı və 1997-ci ilin əvvəllərindən etibarən, ÜDM-in artım sürəti ilə büdcə xərclərinin artım sürəti arasında asılılıq müşahidə olunur (şək.). Belə ki, 1997-2004-cü illər, ÜDM-in zəif artım sürəti şəraitində, dövlət büdcəsi xərclərinin ÜDM-də payı, orta hesabla 16,7%; 2006-2012-ci illər, ÜDMin artımının sürətləndiyi illərdə isə - 27,4% təşkil etmişdir.




**Şək.** Dövlət büdcəsi xərclərinin ÜDM-də payı

Əgər *Skalli* yanaşması baxımında bu səviyyə qiymətləndirilərsə, bu halda, Azərbaycanda, dövlət büdcəsi xərclərinin iqtisadi artıma müsbət təsirinin səmərəli həddini ötdüyünü qeyd etmək olar. Lakin, ümumilikdə götürdükdə, retrospektiv təhlillərə əsaslanaraq, iqtisadi artımın mümkün istiqamətləri və tənzimləmə mexanizmlərinin mahiyyəti araşdırılmadan, dövlət büdcəsi xərcləri səviyyəsinin qiymətləndirilməsi, büdcə xərclərinin srtukturunun nəzərə alınma zəruriliyini itirir. Bu isə alınmış nəticələrin praktiki istifadə baxımından əhəmiyyətini azaldır. Başqa sözlə, bu yanaşmalarda ölkədə iqtisadi artımın sürətlənməsi ilə büdcə xərcləri siyasətinin keyfiyyətinin və büdcə xərclərinin səmərəliliyinin yüksəlməsi, daha məsuliyyətli büdcə xərcləri siyasətinin reallaşdırılıb-reallaşdırılmaması sualı açıq saxlanır. Bu səbədəndə, digər qrup

tədqiqatlarda [5], hər bir ölkənin yalnız özünə məxsus “Skalli nöqtəsi” müəyyənləşdirilməsi zəruriliyi göstərilir.

Bundan əlavə, dövlət xərclərinin optimal səviyyəsi, heç də bu xərclərin minimum səviyyəsi və ya gəlirlərin sürətli artımına müvafiq olaraq xərclərin sürətli artırılmasının zəruriliyi anlamına gəlmir (baxmayaraq ki, birinci halda, iqtisadiyyatda vergi yükünün daha kiçik səviyyəsi, ikinci halda isə, daxili tələbin genişlənməsi, və deməli iqtisadi fəaliyyət üçün daha münbit şərait təmin olunur). Ölkədə, istər real, mövcud maliyyə vəziyyətindən çıxış etməyərək dövlət xərclərinin yüksəlməsi, istərsə də iqtisadi inkişafda xüsusi əhəmiyyətə malik istiqamətlərin tələb olunan səviyyədən az maliyyələşdirilməsi, orta müddətli perspektivdə iqtisadi artıma mənfi təsir göstərən amillərdəndir. Bu səbəbdən də, hər bir ölkədə yaranmış konkret iqtisadi şərait və perspektiv inkişaf meylləri ÜDM-də dövlət xərclərinin payının optimal səviyyəsini müəyyənləşdirir.

Son iki onillikdə MDB məkanı bir sıra tədqiqatçıların araşdırmalarında (ondan əvvəlki illərdə isə, bir sıra beynəlxalq elm mərkəzlərində aparılan tədqiqatlarda) dövlətin ölçülərinin iqtisadi artıma təsiri, o cümlədən, büdcə xərclərinin artımı ilə iqtisadi artım arasında qarşılıqlı əlaqələrinin qiymətləndirilməsinə kəskin fərqli yanaşmalar mövcud olub. Beləki, bir qrup tədqiqatlarda (2), dövlətin ölçülərinin iqtisadi artıma mənfi təsiri; digər qrup tədqiqatlarda isə dövlətin ölçülərinin optimal səviyyəsi və onun azalması zəruriliyi göstərilir. Belə ki:

- iqtisadi artım templəri və dövlətin ölçüləri arasında statistik əlaqələrin qurulması və müxtəlif qrup ölkələr üçün bu ölçülərin minimum, maksimum, optimal, izafi böyük və izafi kiçik səviyyələrinin müəyyənləşdirilməsi üzrə ən qabarıq tədqiqatlar aparılıb. İllarionovun fikirlərinə əsasən iqtisadi artım templəri birbaşa olaraq dövlət xərclərinin səviyyəsindən asılıdır və bu xərclərinin səviyyəsi artdıqca iqtisadi artım templəri azalır. Onun İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələri timsalında, 40 illik statistik baza üzrə apardığı təhlillər göstərir ki, dövlət xərclərinin ÜDM-də payının 1% artması, iqtisadi artım templərini 0,1% azaldır. Dövlət xərcləri ilə iqtisadi artım arasında formalaşdırılmış qeyri-xətti reqressiya modelinə müvafiq olaraq, 2000-ci ilin əvvəllərinə, bu ölkələr üçün dövlətin optimal ölçüləri aşağıdakı kimi müəyyənləşdirilmişdir: zəif inkişaf etmiş ölkələrdə dövlətin ölçülərinin ÜDM-də payı, təqribən 15%; orta inkişaf səviyyəli ölkələr üçün 17%; yüksək inkişaf səviyyəli ölkələr üçün isə 24% təşkil edir ( Rusiya üçün aparılmış hesablamaların nəticələri göstərir ki, dövlət xərclərinin böhran həddi ÜDM-in 36-38%-i səviyyəsindədir və bu həddən sonra iqtisadi artımın dayanıqlığı pozulur).
- Zadornov, dövlət xərcləri ilə iqtisadi artım arasında müsbət asılılığın mövcudluğunu göstərir. Aparılmış araşdırmaların nəticələrinə müvafiq olaraq dövlət xərcləri, iqtisadi artımın təmin olunması məqsədi ilə, özəl sektor və biznesin inkişafı üçün şəraitin yaradılması, iqtisadiyyatda daxili tələbin və istehsalın genişlənməsinin stimullaşdırılması üçün şəraitin yaradılmasını təmin etməlidir. Dövlət xərcləri, makroiqtisadi vəziyyətdən asılı olaraq, sənaye və

ümumiyyətlə iqtisadiyyatda məhsuldarlığın yüksəldilməsi üçün istifadə olunduqda iqtisadi artım bir mənalı sürətlənir.

Lakin istər birinci qrup, istərsə də ikinci qrup yanaşmalar əsasında büdcə xərcləri siyasətinin səviyyəsi və strukturunun təkmillədirilməsi istiqamətləri müzakirə predmeti olmadığından, onların praktiki istifadə imkanları məhdudlaşır.

Bir sıra tədqiqatlarda uzun illər büdcə xərcləri ilə iqtisadi artım arasında əlaqələrin öyrənilməsi və qiymətləndirilməsi məqsədi ilə mürəkkəb statistik modellərin əsasında aparılır. Lakin bu modellərin strukturu mürəkkəbləşdikcə, onlarda olan qüsurlar və qeyri-dəqiqlik də artır. Bu modellərin əsasını, dövlətin təsir edə bildiyi faktorlarla (idarəedici parametrlərlə), son nəticələri müəyyənləşdirən parametrlər arasında əlaqələrin qurulması təşkil edir. Müxtəlif ssenarilər üzrə fiskal siyasətin formalaşdırılması sxemi qiymətləndirilir. Lakin istənilən halda qurulan model müəyyən iqtisadi nəzəriyyənin müddəalarına söykənməlidir. Bu baxımdan da, kəmiyyət xarakterli ekonometrik modellər ayrı-ayrı nəzəriyyələrin praktiki əhəmiyyətinin qiymətləndirilməsi baxımından maraq doğura bilər.

Beləliklə, istər müxtəlif ölkələrin müqayisəsi əsasında, istərsə də ayrıca götürülmüş bir ölkənin retrospektiv məlumatlarının təhlili əsasında dövlət xərclərinin ÜDM-də payının dəyişmələrinin ÜDM-in yaxın və orta müddətli perspektivə dinamikasına təsirinin qiymətləndirilməsi üçün bu ölkələrdə formalaşmış iqtisadi şərait mütləq nəzərə alınmalıdır - büdcə xərcləri, bir qayda olaraq, fərqli iqtisadi inkişaf səviyyəsinə və iqtisadiyyatının fərqli strukturuna malik ölkələrdə fərqli səviyyə və bölgü strukturuna malik olur . Bu baxımdan da, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələr (ilk növbədə, bank sistemi və fond bazarlarının yüksək inkişaf səviyyəsinə çatmış ölkələr); ixrac strukturunda təbii resursların, o cümlədən enerji resurslarının payı az olan ölkələr; iqtisadiyyatında yüksək diversifikasiyaya, yüksək və dayanıqlı iqtisadi artıma malik olan ölkələr ilə inkişaf etməkdə olan və ixracının əsasını enerjidaşıyıcılar təşkil edən ölkələr fərqləndirilməli, müqaisə və qiymətləndirilmələr eyni qrupa daxil ölkələr üzrə aparılmalıdır. Məsələn, iqtisadiyyatının əsasını enerji daşıyıcıların ixracı təşkil edən inkişaf etməkdə olan ölkələrdə ekspansionist büdcə siyasəti reallaşdırıldığı və bu ölkələrin büdcə xərcləri strukturunda geniş manevr imkanları olduğu halda, iqtisadi artımı enerjidaşıyıcıların idxalına əsaslanan ölkələrdə büdcə xərcləri strukturunda manevr imkanları məhdud olur. Bu baxımdan da hər bir konkret baxılan ölkədə mövcud iqtisadi şəraitdən asılı olaraq dövlət xərclərinin məqbul səviyyəsi və strukturu müəyyənləşdirilir və istənilən halda, büdcə siyasətində daynıqlığın təmin olunması orta müddətli perspektivin əsas məslələrindən biri kimi çıxış edir.

***Enerji daşıyıcıların ixracına əsaslanan iqtisadiyyatlarda büdcə siyasətinin əsas məsələləri.*** İqtisadiyyatın əsasını təbii ehtiyatların istehsalı və ixracı təşkil edən bütün ölkələrdə qısa və orta müddətli perspektivə dövlət büdcəsi xərcləri siyasətinin formalaşması bir sıra başlanğıc şərtlərlə məhdudlanır. Bu

şərtlər sırasına, ilk növbədə: 1) bərpa olunmayan ehtiyatların istismarı (istehsalı) müddətinin məhdudluğu və bu səbəbdən, baxılan sahədən büdcəyə stabil daxilolma müddətlərinin məhdudluğu (adətən təbii ehtiyatların istehsalı və ixracı müddəti, müxtəlif ölkələrdə bir neçə və hətta, bir onilliklə məhdudlana bilər); 2) iqtisadiyyatda gəlirlərin, o cümlədən, büdcə gəlirlərinin dünya bazarlarındakı konyukturadan asılılığı daxildir. Belə ki, bu ölkələrdə büdcə daxilolmaları xərcləri dövrü olaraq bazar konyukturası təzyiqləri ilə üzləşdiyindən, büdcə gəlirlərində yaranan sapmaların büdcə xərcləri səviyyəsi və strukturu üçün yaratdığı qeyri-müəyyənliklər dövlət maliyyəsinin idarə olunmasının əsas problemlərindən birinə çevrilir.

Dünya bazarlarında konyukturanın kəskin dəyişməsi neft ixracı ölkələrində büdcə xərcləri kanalı üzrə iqtisadi subyektlərin gəlirlərinə əhəmiyyətli təsir göstərir və büdcə xərclərində yarana biləcək dövrlük ölkədə dayanıqsız iqtisadi artımı müəyyənləşdirə bilər. Budan əlavə, neft-qaz sektoru təkcə makroiqtisadi göstəricilərin (ÜDM, dövlət büdcəsi gəlirləri və s.) formalaşmasında deyil, eyni zamanda iqtisadiyyatın həm real, həm də maliyyə sektorunun ayrı-ayrı sahələrinin gəlirlərinin formalaşmasında iştirak edir. Azərbaycanda 2000-2012-ci illər ərzində, orta hesabla, neft-qaz sektorunun ümumi buraxılışında aralıq istehlakın payı 7-12% səviyyəsində olub. İqtisadiyyatın digər sahələrinə ödənişlərin bu cür yüksək həddi şəraitində, neft-qaz sektorunda ümumi buraxılış səviyyəsinin dəyişməsi, birbaşa olaraq ölkə iqtisadiyyatının digər sahələrinin gəlirlik, və müvafiq olaraq büdcə daxilolmalarının səviyyələrində dəyişikliklərlə əlaqədardır. Bundan əlavə, neft-qaz sektorunun bank və sığorta sahələrində əməliyyatları maliyyə sektorunun fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bütün bu səbəblərdən də orta müddətli perspektivə dövlət büdcəsinin təbii ehtiyatların istehsalı və bazar konyukturasından asılılığının aradan qaldırılması həmin ölkələrdə iqtisadi siyasətinin əsas məsələlərindən birinə çevrilir.

Azərbaycanda 2000-ci illərin ortalarından başlayaraq dövlət büdcəsi xərclərinin neft gəlirlərindən asılılığı sürətlə artmağa başlayıb. Bu asılılıq iki istiqamət üzrə müəyyənləşir: 1) ARDNF-dən edilən və illər üzrə artan transfertlər; 2) neft-qaz sektorunun birbaşa və dolayı vergiləri. 2012-ci ilin yekunları üzrə büdcə daxilolmalarının 75%-ni neft sektorundan daxil olmalar yəşkil edir (beləki, ARDNF-in birbaşa transferləri – 50%; vergi və digər daxilolmalar – 25%. Təbii ki, dövlət büdcəsinin neft gəlirlərindən bu dərəcədə yüksək asılılığı, orta müddətli perspektivə, ölkədə iqtisadi artım və makroiqtisadi sabitlik üçün ciddi risklər yaradır. Problemin həlli və səmərəli büdcə siyasətinin formalaşdırılması aşağıdakı qarşılıqlı əlaqəli məsələlərin həlli ilə bağlıdır:

1) orta müddətli perspektivə zəruri büdcə öhdəliklərinin ödənilməsi və büdcə xərcləri səviyyəsində dayanıqlığının təmin olunması;
2) maliyyə bazarında tənzimlənən əsas makroiqtisadi parametrlərin – inflyasiya, manatın nominal mübadilə məzənnəsi, faiz dərəcəsi və dövlət borcu səviyyələrində yarana biləcək kəskin meyllərin

qarşısının alınması;

3) dövlət büdcəsinin neft-qaz gəlirlərindən asılılıq səviyyəsinin dəqiq qiymətləndirilməsi;
4) neft-qaz gəlirlərindən asılılığı azalda biləcək büdcə xərcləri siyasəti metodologiyasının hazırlanması.

Elmi ədəbiyyatda neft ixracı ölkələrində dövlət büdcəsi xərclərinin formalaşmasına ən ümumiləşdirilmiş yanaşma, bütün istehsal dövrü ərzində yaradılan neft gəlirlərinin illər üzrə bərabər bölgüsünü nəzərdə tutur (yəni, neft-qaz istehsalı və qiymətlərin yüksək səviyyələri şəraitində gəlirlərə qənaət olunması və istehsalın azalması və qiymətlərin aşağı səviyyələri şəraitində onların istifadə edilməsi). Bu yanaşma, dövlətin orta müddətli perspektivə büdcə öhdəliklərinin ardıcıl olaraq yüksəlişi şəraitində, xüsusi aktuallığa malikdir. Belə ki, Azərbaycan şəraitində həyat səviyyəsi göstəriciləri üzrə (minimum əmək haqqı, yaşayış minimumu, əmək pensiyaları, sosial ödəniş səviyyələri və s. üzrə) müəyyənləşdirilmiş konseptual inkişaf meylləri və onların ardıcıl yüksəlişi üzrə müəyyənləşirilmiş meyllər, yaranacaq öhdəliklərin yerinə yetirilməsi üçün neft gəlirlərinin və büdcə xərclərinin idarə olunmasına daha əsaslı yanaşmanın müəyyənləşdirilməsini zəruri edir.

Dövlət büdcəsi xərclərinin dayanıqlı artımı, dövlət büdcəsində gəlirlərin dayanıqlı artımını, gəlir və xərclərin uzunmüddətli tarazlığının təmin olunmasını tələb edir. Təbii ki, dövlət büdcəsi gəlirlərinin həlledici dərəcədə neft gəlirlərindən asılılığı dövlət büdcəsində tsiklik meylləri müəyyənləşdirir. Bir sıra zəif və orta inkişaf səviyyəsinə malik ölkələrdə məhz tsiklə uyğun büdcə siyasəti, inkişaf etmiş ölkələrdə isə tsiklə əks (və ya anti-tsiklik) büdcə siyasəti reallaşdırılır. Neft-qaz ixracı ölkələrinin təcrübəsi göstərir ki, büdcə qaydaları fərqli prinsiplərə əsaslana bilər. Belə ki:

- *neft-qaz gəlirlərinin stabil pay hissəsinin istifadəsi qaydası.* Bu prinsipə müvafiq olaraq, neft gəlirlərinin büdcəyə transfert olunan hissəsi qeyri-neft və ya ümumi ÜDM-in stabil faizi nisbətində müəyyənləşir. Büdcə tarazlığının qorunmasının mühüm şərti kimi neft gəlirlərinin yalnız bir hissəsinin istifadəsi çıxış edir. Müəyyən dövrdən sonra, neft gəlirlərinin azalması ilə, qeyri-neft ÜDM-in ümumi ÜDM-də payı artır. Bu istiqamətdə aparılmış hesablamalar göstərir ki, neft gəlirlərinin dövlət büdcəsinə transfertinin optimal səviyyəsi ümumi neft daxilolmalarında yaranan gəlirlərin diskontlaşdırılmış payı səviyyəsindədir.

Neft gəlirlərindən sabiq pay nisbətinin istifadəsi bir sıra neft ixracı ölkələrində (məsələn, Qazaxstanda) tətbiq olunur. Bu ölkələrdə: 1) bütün neft gəlirləri yığım fondunda toplanaraq, büdcə xərclərinin sərt müəyyənləşdirilmiş hissəsinin maliyyələşdirilməsində istifadə olunur; 2) qəbul olunmuş inkişaf konsepsiyasına müvafiq olaraq orta müddətli perspektivə, büdcə kəsrinin tədrici azalması şəraitində, büdcə xərclərinin artım tempi ilə nominal ÜDM-in artım templəri tarazlaşdırılır (məsələn, Qazaxstanda neft fondundan təmin olunan transfertlərin səviyyəsi büdcə kəsrinin ÜDM-də maliyyələşdirilən 3-4%

səviyyəsinin, 2-3%-ə qədər endirilməsini nəzərdə tutur).

- *neft-qaz gəlirlərinin tam qorunması prinsipi.* Bu prinsipə müvafiq olaraq dövlət büdcəsinin qeyri-neft kəsri toplanmış neft vəsaitlərinin təmin etdiyi real gəlirin səviyyəsini aşmamalıdır. Başqa sözlə, bu prinsip neft gəlirlərinin tam həcmdə toplanması və qorunmasına əsaslanır və təmin olunacaq neft gəlirlərinin ümumi həcminin qiymətləndirilməsini tələb etmir.

Göstərilən prinsipin istifadə olunduğu ölkələr sırasında Norveçi qeyd etmək olar. Bu ölkənin istifadə etdiyi büdcə xərcləri strategiyasına müvafiq olaraq dövlət büdcəsinin qeyri-neft kəsri ölkənin neft fondunda toplanmış aktivlərin 4% həcmini (və ya maliyyə bazarlarında mövcud olan LİBOR səviyyəsini) aşmamalıdır.

- *orta qiymət prinsipi* (və ya büdcənin struktur tarazlıq prinsipi). Dünya təcrübəsində büdcənin struktur tarazlığı, iqtisadi tsikllərin təsiri amilindən asılı olmayan büdcə xərcləri siyasətinin formalaşdırılması qaydası kimi qiymətləndirilir.

Dövlət büdcəsində struktur balansın formalaşması konsepsiyasına müvafiq olaraq dövlət büdcəsinin xərcləri dövlət gəlirlərinin o səviyyəsində planlaşdırılır ki, həmin səviyyəyə ÜDM-in konyuktura ilə müəyyənləşən dəyişiklikləri təsir edə bilmir. Başqa sözlə, ÜDM-in tsiklinə müvafiq olaraq artan gəlirlər müvafiq stabilləşdirmə fondunda anti-tsiklik məqsədlər üçün cəmlənir. Bu zaman, büdcə qaydalarında gələcək öhdəliklərin icrası ilə bağlı, qanunvericiliklə müəyyənləşən səviyyədə büdcə profisiti müəyyənləşə bilər (məsələn, Çili təcrübəsində bu, 0,5-1% səviyyəsindədir) və büdcə kəsri yalnız müstəsna hallarda müəyyənləşmiş həddi aşa bilər.

Bu cür təcrübələr göstərir ki, büdcə xərcləri siyasətinin reallaşdırılmasında büdcə qaydaları xüsusi əhəmiyyətə malikdir, dəqiq müəyyənləşdirilmiş qaydaların olmaması dövlət maliyyəsinin dayanıqsızlığına gətirir və büdcə qaydaları mütləq əks tsiklik xarakter daşımalıdır. Labüd ki, bu tip konsepsiyaların Azərbaycanda reallaşdırılması, ölkədə müvafiq institusional strukturların yaradılmasını, büdcə prosesinin onun tələblərinə uyğun müəyyənləşdirilməsini, büdcə parametrlərinin hesablama metodologiyasının hazırlanmasını, proqnozların müstəqil mütəxəssislər tərəfindən aparılmasını və digər zəruri elementlərin mövcudluğunu tələb edir.

### ƏDƏBİYYAT


1. Балацкий Е.В. Закон Вагнера, кривая Армии-Рана и парадокс бережливости // «Общество и экономика», №9, 2010, с.80-97.
2. Илларионов А., Пиваварова Н. Размеры государства и экономический рост // «Вопросы Экономики», №9, 2002, с.18-36.
3. Durevall D., Henrekson M. The Futile Quest for a Grand Explanation of Long-Run Government Expenditure// Research Institute of Industrial Economics, IFN Working Paper, №818, 2010.
4. Mitchell D. The Impact of Government Spending on Economic Growth/ Heritage Foundation, 2005 (http://www.heritage.org/Research/Reports/2005/03/The-Impact-of-

Government-Spending-on-Economic-Growth).
5. Hunter L.A. The Leviathan Project/ The Institute for Social Choice and Individual, Values, 2008 (http://www.socialsecurityinstitute.com/uploads/File/The-Leviathan-Project-Web.pdf).

## ЗАДАЧИ ОЦЕНКИ ВЛИЯНИЯ РАСХОДОВ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТА НА ЭКОНОМИЧЕСКИЙ РОСТ В АЗЕРБАЙДЖАНЕ

**АГА-КЕРИМ ГАДЖИЕВ**

### РЕЗЮМЕ

В статье исследуются вопросы влияния расходов государственного бюджета на экономический рост и направления их совершенствования в Азербайджане.

На базе анализа существующих подходов в научной литературе, по влиянию государственных расходов на темпы экономического роста, для нефте-экспортирующих стран конкретизируется задача определения оптимального уровня государственных расходов и указывается, что данный уровень для каждой страны зависит от структурных особенностей экономики.

В конце статьи приводятся возможные направления совершенствования бюджетных правил в Азербайджане, включающие оценку трансфертов в государственный бюджет.

**Ключевые слова:** ВВП, расходы государственного бюджета, экономический рост, макроэкономическая стабильность, дефицит государственного бюджета

## THE TASKS ASSESSING THE IMPACT OF STATE BUDGET ALLOCATIONS FOR ECONOMIC GROWTH IN AZERBAIJAN

**AGA-KARIM HAJIYEV**

### SUMMARY

The article studies the influence of questions of state budget expenditures on economic growth and the direction of improvement in Azerbaijan.

Based on the analysis of existing approaches in the literature, the impacts of state spendings on economic growth are assessed on the sample of oil-exporting countries and it is concretized that the problem of determining the optimal level of public spendings must be defined due to structural characteristics of the economy of each country.

İn conclusion, possible directions of improvement of the budget rules in Azerbaijan, including the assessment of transfers to the state budget are analyzed.

**Key words:** GDP, expenditures of the state budget, economic growth, macroeconomic stability, state budget deficit